Tarix və onun problemləri, №4 2009

**KƏMALƏ HƏSƏNOVA**
*BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dissertantı*

# AZƏRBAYCAN RESPUBLIKASININ AVROPA ŞURASININ PARLAMENT MƏCLISI ILƏ ƏLAQƏLƏRI

Müasir dövrdə beynəlxalq münasibətlərin əsas iştirakçılarından biri beynəlxalq təşkilatlardır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycan Respublikası xarici siyasətinin, diplomatiyasının əsas vəzifələrindən və xarici siyasət fəaliyyətinin mühüm istiqamətlərindən biridir.

XX əsrin sonlarında Azərbaycan Respublikası müstəqilliyinə yenidən qovuşduqdan sonra ölkənin qarşısında duran əsas vəzifələrdən biri də mötəbər beynəlxalq təşkilatlarla əlaqələrin qurulması və inkişaf etdirilməsindən ibarət olub. Bu baxımdan xarici siyasət fəaliyyətində önəmli yer tutan Avropa təşkilatlarından biri də Avropa Şurasıdır. Azərbaycan Respublikasının Avropa Şurası ilə əlaqələrinin qurulması, inkişafı, formaları və məqsədləri beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər bu təşkilatın yarım əsrdən artıq bir müddətdə toplanmış təcrübəsi əsasında qurulub, nəticədə əlaqələrin bütün formaları fayda verib.

1949- cu il mayın 5-də Avropanın 10 aparıcı dövləti tərəfindən təsis edilmiş Avropa Şurası tezliklə Avropanın nüfuzlu təşkilatına çevrilir. Avropa Şurası Parlament Məclisinin iqamətgahı Strasburqda yerləşir(8,s.5). Hüquqi statusuna görə Avropa Şurası regional beynəlxalq təşkilatdır. Beləki, Avropa Şurası eyni region dövlətləri tərəfindən beynəlxalq saziş əsasında yaradılmış və təşkilatın fəaliyyəti BMT Nizamnaməsinin prinsiplərinə uyğundur(5,s.80). Təşkilatın nizamnaməsi preambula, 10 fəsil və 42 maddədən ibarətdir. Avropa Şurasının iki əsas orqanı – Nazirlər Komitəsi və Parlament Assambleyasıdır. İngilis və fransız dilləri Avropa Şurasının rəsmi dilləridir. Lakin işçi dil kimi Parlament Assambleyası iclaslarında alman, italyan və rus dillərindən də istifadə olunur. Təşkilatın ən başlıca sənədi 1953-cü ildə qüvvəyə minmiş – "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasıdır. Avropa Şurasının Parlament Assambleyası (AŞPA) bürodan, daimi komitədən, on komitədən və 5 siyasi qrupdan ibarətdir. Hazırda Avropa Şurası özündə 46 ölkəni birləşdirir. Avropa Şurasının əsas üstünlüyü Avropa Konvensiyalarının qəbul edilməsindədir.

Hökumətlərarası və parlamentlərarası siyasi təşkilat olan Avropa Şurasına Azərbaycan Respublikası 1992-ci ildə "xüsusi dəvət olunmuş qonaq" statusu almaq üçün müraciət etsə də, bu məsələ o zaman öz müsbət həllini tapmamışdı (3, s.464). Qeyd edək ki, həmin dövrdə sözügedən təşkilat Cənubi Qafqaz regionuna qədər genişlənməyə hazır deyildi. Avropa Şurasının qeyri-üzv ölkələr üzrə komitəsi Ermənistan – Azərbaycan münaqişəsi ilə əlaqədar Azərbaycan Respublikası əleyhinə 1992-ci ildə bəyannamə qəbul etmişdi. Sözsüz belə bir şəraitdə Avropa Şurasında Azərbaycanın obyektiv və düzgün imicini formalaşdırmaq lazım idi. AŞPA hələ 1989-cu ildə "xüsusi dəvət olunmuş qonaq " statusu təsis edib. Qeyd etmək lazımdır ki, bu status ilk dəfə SSRİ, Macarıstan, Yuqoslaviya və Polşaya verilib. Bu statusu alan dövlətlərin nümayəndələri Avropa Şurasının bir orqanında Parlament Assambleyasında təmsil olunur. Xatırladaq ki, bu statusu alan dövlətlər səs vermək və təklif irəli sürmək hüququna malik olmur, lakin Assambleyanın və əksər komissiyaların işində iştirak edirlər. Bu statusu almazdan əvvəl müraciət edən dövlətlər insan hüquqları ilə bağlı beynəlxalq məcburi səciyyəli bir sıra mühüm siyasi və hüquqi vasitələr, o cümlədən BMT-nin İnsan hüquqları paktlarını qəbul edir. Avropa Şurasının Nizamnaməsinə əsasən təşkilata elə dövlətlər daxil

ola bilər ki, qanunun aliliyi prinsipini tanısın, öz yuridiksiyasında olan şəxslərin əsas insan hüquqlarından və azadlıqlarından istifadəsinə təminat versin. 1993-cü ildən etibarən Azərbaycan xalqı Avropa dəyərləri, normaları və standartları əsasında hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması yolunu tutmuş, dünyada gedən proseslərə qeyri adi tarixi, mədəniyyəti, intellektual potensialı ilə təsir göstərib.

Nəhayət, 1996-cı il iyunun 28-də Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası Azərbaycan Respublikasına "xüsusi qonaq" statusu verib(2). Prezident Heydər Əliyev Azərbaycan Respublikasının bu təşkilata tamhüquqlu üzv olması üçün mühüm işlər görüb. H.Əliyevin bu təşkilatla əlaqələrin inkişafına verdiyi əhəmiyyət 1996-cı il iyulun 8-də imzalanmış "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında" sərəncamda öz əksini tapıb (1). Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Avropa Şurası təşkilatının 1997–ci ildə qəbul etdiyi 1119 nömrəli qətnamədə münaqişənin Lissabon sammitinin prinsipləri əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması şərti ilə beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyi göstərilirdi. Avropa Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin oktyabrında Strasburqda keçirilən ikinci zirvə toplantısında iştirakı Azərbaycanın Avropa proseslərinə inteqrasiyasını təmin edirdi.

1998-ci il yanvarın 20-də Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 1999-cu ilin may ayının 14-də Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında " sərəncam imzalandı(6,s.170).

Bu sərəncamlarda Avropa ölkələrində qəbul edilmiş standartlara uyğunluq baxımından ölkənin cinayət, cinayət-prosessual, mülki və mülki – prossesual məcəllərinin hazırlanmasının sürətləndirilməsi Azərbaycanın Avropa Şurasının bir sıra konvensiya və sazişlərinə qoşulması məsələsinin öyrənilməsi tövsiyə edilib.

Qeyd edək ki, Azərbaycan Avropa Şurasına həmişə bir məqsəd kimi deyil, Avropa dəyərlərindən bəhrələnmək istiqamətində bir vasitə kimi baxıb. Azərbaycanın bu təşkilatda qonaq statusu ilə iştirakı daxili qanunvericiliyin Avropa standartları səviyyəsinə yüksəldilməsi yolunda səmərəli olub.

Milli Məclis 2000-ci ilin martında Avropa Şurasının 8 konvensiyasına qoşulmasına dair respublika rəhbərliyinin imzaladığı müqavilələri ratifikasiya etməsi Azərbaycanın Avropa Şurasına qəbuluna dair müzakirələri sürətləndirib. 2001-ci il yanvarın 17-də Nazirlər Komitəsinin Nümayəndələr səviyyəsində keçirilmiş iclasında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi barədə qərar verildi. Nəhayət, 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına üzv qəbul edildi və bununla da Azərbaycan diplomatiyası Avropa inteqrasiya proseslərinə qoşulmaq uğrunda mübarizədə böyük qələbə əldə edərək, Avropanın üzvi hissəsinə çevrildiyini əməli fəaliyyətində sübut etdi. Azərbaycan Respublikası qurumun 42-ci üzvü oldu. Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığını şərtləndirən amillər:

1.Azərbaycan Respublikasının əlverişli coğrafi şəraiti onun dünya inteqrasiya proseslərindən kənarda qalmasını qeyri- mümkün edirdi.

2.Avropa Şurasına üzv olmaqla Azərbaycan demokratiyanın, demokratik təsisatların inkişafı yolunda daha böyük nailiyyətlər əldə edə bilərdi.

3.Bu nüfuzlu təşkilata üzv olmaqla Azərbaycan Qarabağ problemi ilə bağlı beynəlxalq arenada özünə dəstək qazana bilər.

4.Avropa Şurasına üzvlük Azərbaycanın müstəqilliyini möhkəmləndirilməsi və Azərbaycanın Avropanın digər qurumlarına üzv olması yolunda böyük əhəmiyyətə malik idi.

Azərbaycan Respublikasının Avropa Şurası sıralarına qoşulması mühüm hadisədir. Azərbaycan təkcə coğrafi Avropanın deyil, həm də demokratik Avropanın bir hissəsinə çevrildi. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi yeni əsrin əvvəlində xalqımızın taleyində baş verən ən mühüm hadisələrindən biridir. Qeyd edək ki, münaqişələrin həllində, müdafiə, təhlükəsizlik məsələlərində Avropa Şurası konkret təcrübəyə malik deyil, buna baxmayaraq onun proqramına cəmiyyəti narahat edən çox böyük məsələlər daxildir. Avropa Şurasının proqramı insan hüquqları, müxtəlif kütləvi informasiya vasitələri, hüquq sahəsində əməkdaşlıq, sosial və iqtisadi problemlər, səhiyyə, təhsil, mədəniyyət, idman, gənclik, yerli və regional idarəetmə və ətraf mühitlə əlaqəli məsələləri əhatə edir.

Azərbaycan Respublikası Avropa Şurasına daxil olarkən sözsüz tam hüquqlu üzv kimi Avropa Şuranın verdiyi imkanlardan bəhrələnmək üçün öz milli proqramını da hazırladı.

1. Müstəqilliyin təsdiqi, möhkəmləndirilməsi və inkişafı .
2. Avropa dövlətəri ilə diplomatik münasibətlərin qurulmasına imkan qazanmaq.
3. Öz məqsəd və məramları haqqında məlumat vermək üçün Avropa Şurasının ali tribunasından istifadə etmək .
4.Ölkənin xarici siyasətinin dinc yanaşı yaşamaq sülhü və təhlükəsizliyi qorumaq.

Qeyd edək ki, İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilk dəfə olaraq 2001–ci ilin aprelin 23-dən 27-dək tamhüquqlu üzv kimi Avropa Şurası Parlament Assambleyasının iclasında iştirak edib(7,s.119). Azərbaycan nümayəndə heyəti "azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilmiş soyqrımı haqqında" sənədin tanınması və "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər barədə rəsmi sənədin qəbulu haqqında məsələ qaldırdı və belə bir sənədin qəbul edilməsinə müvəffəq oldu. AŞPA-da "Dağlıq Qarabağda ekoloji vəziyyət haqqında", Azərbaycanda məcburi köçkünlərin vəziyyəti haqqında" və s. sənədlər qəbul edilib. Azərbaycan nümayəndə heyətinin 2002-ci ilin sentyabrında AŞPA-nın payız sessiyasında iştirakı uğurlu sayıla bilər. Sessiyada həm Azərbaycanın, həm də Ermənistanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi məsələsi ilə bağlı çıxış edən İlham Əliyevin prinsipial mövqeyi nəticəsində məruzələrdə Azərbaycan üçün əhəmiyyətli düzəlişlər edildi, Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktının Avropa Şurasının sənədində öz əksini tapdı. Azərbaycan Respublikası təşkilata üzv olduğu qısa müddət ərzində AŞPA-nın iki mühüm komitəsinin qaçqınlar və miqrasiya, iqtisadi məsələlər üzrə Komitəsinin iclasları Bakıda keçirildi. Azərbaycan nümayəndə heyəti AŞPA-nın çox mühüm komitəsi olan monitorinq (üzv ölkələrdə öhdəliklərin yerinə yetirilməsinə nəzarət edən komitənin üzvü) başqa bir üzvü isə Elm, Təhsil və Mədəniyyət komitəsinin Cənubi Qafqaz üzrə məruzəçisi seçildi. AŞPA-da Azərbaycan nümayəndə heyətinin fəaliyyəti təqdirəlayiqdir. Nümayəndə heyətinin AŞPA–dakı fəaliyyətinə 2001-2003-cü illərdə millət vəkili İlham Əliyev, 2004-cü il yanvarın 26–dan Səməd Seyidov rəhbərlik edir. AŞPA-da Azərbaycan Respublikası 6 əsas və 6-sı əvəzedici olmaqla 12 millət vəkili ilə təmsil olunur. Burada həm iqtidar, həm müxalifət, həm də bitərəf deputatlar yer alıb. AŞPA öz tərkibinə görə çoxspektrli bir qurumdur, burada bir – birinə zidd siyasət yeridən, dövlət maraqları qlobal miqyasda toqquşan ölkələrin nümayəndələri toplanır, onların siyasi baxışları da çoxcəhətlidir.

2003-cü il yanvarın 27-də nümayəndə heyətinin rəhbəri Ilham Əliyev AŞPA-nın sədr müavini və büro üzvü vəzifələrinə seçildi(4). Azərbaycan nümayəndə heyətinin

başçısının büro üzvü seçilməsi əlamətdar hadisə idi. AŞPA-dakı fəaliyyəti zamanı İ.Əliyev demokratiya və insan hüquqları ideyasına daima sadiq qaldı. İ.Əliyevin Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrdə Azərbaycan həqiqətlərini özündə əks etdirən 30-a yaxın sənəd hazırladı və təşkilatın rəsmi sənədləri sırasına daxil edildi. Quruma daxil olduğumuz ilk yaz sessiyasında nümayəndə heyətinin başçısı İlham Əliyev AŞPA-nın keçirdiyi müzakirələrdə qitəni narahat edən iqtisadi və qlobal cinayətkarlıq məsələləri ilə bağlı çıxış edərək bildirib ki, Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələrinin zəbt etməsi nəticəsində Dağlıq Qarabağ və onun ətrafında qeyri-qanuni əməliyyatlar keçirilir. İlk dəfə olaraq belə bir həqiqət avropalıların diqqətinə çatdırılıb ki, azərbaycanlıların işğal edilmiş torpaqlarında narkotik bitkilər becərilir. 2002-ci ilin yay sessiyasında Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndələri Strasburqda Avropa Şurasının rəhbərləri ilə görüşlər keçirmişdir. Görüşlərdə işğala məruz qalan ərazinin təmsiçiləri Ermənistanın işğalçı kimi tanınmasını tələb edirdilər. Azərbaycan nümayəndə heyətinin başçısı Ilham Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin Dağlıq Qarabağın və onu ətrafındakı 7 rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan artıq qaçqın və məcburi köçkün probleminin olması, onların çətin vəziyyətdə yaşaması barədə məlumat verdi. İlham Əliyev Avropa Şurasının Ermənistan - Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həllinə köməklik göstərəcəyinə ümidvar olduğunu bildirdi. xahiş etmişdir. Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında Ermənistanın işğalçı dövlət olması bir daha təsbit edildi. Münaqişənin aradan qaldırılması istiqamətində Ermənistanın heç bir addım atmaması AŞPA-nın sənədlərində öz əksini tapır. AŞPA-nın Ermənistan –Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Terri Devis 2004-cü ilin fevralında Azərbaycana səfəri zamanı prezident İlham Əliyev Ermənistanın hərbi təcavüzü faktlarını bir daha vurğulayaraq Avropa Şurasının bu məsələyə siyasi qiymət verməsinin vacibliyini bildirdi.

Avropa Şurasının tamhüquqlu üzvü kimi, onunla əməkdaşlığı günbəgün gücləndirmək Azərbaycanın bu təşkilatla fəaliyyətində Avropada və dünyada insan hüquqlarının qorunması, demokratik proseslərin inkişaf etdirilməsi, dövlətlərarası münasibətlərin bərabərlik, qlobal problemlərin həllinə yardım göstərməsi təşkilatın tamhüquqlu üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərə vicdanla əməl etməsi kimi prinsiplərini həmişə rəhbər tutur. Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin təhlili nəticəsində məlum olur ki, müasir dövrdə beynəlxalq aləmdə, xüsusən Avropa məkanında baş verən proseslərə qoşulmaq, Avropa ölkələri ilə münasibətlər qurmaq və bu əlaqələrin müsbət istiqamətdə inkişafı beynəlxalq əməkdaşlıqdan, qlobal problemlərdən kənarda qalmamaq üçün Avropa Şurasının üzvü olmaq əsas amillərdən biridir.

Azərbaycanın Avropa ailəsinə sıx inteqrasiyası xəttinin gerçəkləşdirilməsi məqsədi ilə 2004-cü ildə baş verən mühüm hadisələrdən biri prezident İlham Əliyevin Strasburq səfəri oldu. Yaz sessiyasında İ.Əliyev artıq Azərbaycan Respublikasının prezidenti kimi Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü barədə ətraflı çıxış etdi.

Təşkilatın baş katibi Valter Şvimmer 2004-cü il aprelin 8-də Azərbaycana səfəri zamanı Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının vacibliyini qeyd edərək bu problemin "dondurulmuş münaqişə"adlandırılmasının qəti əleyhinə olduğunu bildirdi. V.Şvimmer bu məsələnin yalnız Ermənistan-Azərbaycan və Cənubi Qafqaz regionunun deyil, bütün Avropanın problemi olduğunu və bu səbəbdən münaqişəni Avropa səviyyəsində, sülh yolu ilə birdəfəlik həll edərək regionda daimi sülhün təmin edilməsinin zəruriliyini bildirdi. Azərbaycan Avropa Şurası ilə əlaqələr yaratdığı gündən qurumun nümayəndələri tez-tez Azərbaycana gəlir, dövlət və hökumət başçıları ilə görüşlər keçirir. Azərbaycan nümayəndə heyəti qurumun müxtəlif strukturlarında keçi-

rilən tədbirlərə qatılaraq müzakirə edilən məsələlərlə bağlı Azərbaycanın mövqeyini çatdırır. Azərbaycan nümayəndə heyəti Parlament Assambleyasındakı digər dövlət nümayəndələri ilə sıx əməkdaşlıq yaratmağa nail olaraq, prinsipial məsələlərə münasibətdə ortaq mövqedən çıxış edir.

Beləliklə, AŞPA ilə əməkdaşlığın inkişaf etdirilməsi nəticəsində həm də Avropa Şurasının ən mühüm prinsipləri kimi səciyyələndirilən demokratiya və insan hüquqları ideyalarının təşəkkülü istiqamətində Azərbaycan Respublikası kifayət qədər böyük uğurlar əldə etdi. Ümumilikdə Azərbaycan nümayəndə heyətinin AŞPA-dakı fəaliyyəti Azərbaycan Respublikasının beynəlxalq aləmdə imicini daha da gücləndirdi.

### *ƏDƏBIYYAT:*

1.”Avropa ümumi evimizdir” //“Azərbaycan“ qəz. "Avropa ümumi evimizdir” “Azərbaycan“ qəz. 2001, 9 fevral №32(2745).
2. Azərbaycan və Avropa Şurası “Azərbaycan“ qəz. №23(2736) 30 yanvar 2001
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005.
4. Milli Məclisin AŞPA-dakı daimi nümayəndə heyətinin başçısı İ.Əliyev AŞPA-nın sədrinin müavini və büro üzvü seçilmişdir. “Azərbaycan “qəz. №21 2003, 28 yanvar, №21(3334).
5. Nəcəfov M.Avropa Şurası və qarşılıqlı əlaqələrin təşəkkül mərhələləri// Dirçəliş-XXI jurnalı, Bakı:1999 №20.
6.Vəliyev A. Azərbaycanın Ümumavropa inteqrasiya proseslərinə qoşulmasında Avropa Şurasının rolu// Dirçəliş-XXI əsr jurnalı, Bakı: 2001№40
7. Vəliyev A. Avropa Şurası və Azərbaycan arasında əməkdaşlığın mövcud durumu və real perspektivləri// Dirçəliş-XXI jurnalı, Bakı: 2002 №58
8. Sovet Evropa. M., 1996.

**КЯМАЛЯ ГАСАНОВА**

**ОТНОЩЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ПАРЛАМЕНТСКОЙ АССАМБЛЕЕ СЕ**

В статье анализируется отнощения Азербайджанской Республики с Парламентской Ассамблее СЕ, принятые решения на этих заседаниях. В 28 июня 1996 года в пленарной сессии Парламентской Ассамблее Совета Европы Азербайджан был предоставлен статус специального преглашонного. В 25 января 2001 году Азербайджан стал членом Парламентской Ассамблее Совета Европы.

**KAMALA HASANOVA**

**RELATIONS BETWEEN AZERBAIJAN REPUBLIC AND PARLIAMENT ASSEMBLY OF COUNCIL OF EUROPE**

In article analysed relations between Azerbaijan Republic and Parliament Assembly of Council of Europe and acsepted desigion of these meetings.

On june 28, 1996 the Parliamentary Assembly of the Council of Europe adopted a resolution to grant Azerbaijan “ a special guest status” in the Council of Europe. On january 25, 2001 Azerbaijan Republic became member of Parliament Assemmbly of Council of Europe.

***Rəyçilər: t.e.d.C.Həsənli, t.e.d.M.Fətəliyev.***

***BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının 02 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***